# Sədrlik



***Muxtar Babayev***

***COP29-un müəyyən olunmuş Prezidenti***

*2024-cü ilin yanvarın 7-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti təyin olunub. Muxtar Babayev daha əvvəl keçirilmiş beş COP-da Azərbaycanın nümayəndə heyətinə rəhbərlik edib. O, 2018-ci ildən etibarən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri vəzifəsində çalışır.*

*COP29-un müəyyən olunmuş Prezidenti vəzifəsində Muxtar Babayev Sədrliyin Planını irəli sürəcək, tərəflərin bir araya gətirilməsi, əvvəlki vədlərin yerinə yetirilməsi və qarşıya qoyulmuş məqsəd və ambisiyaların həyata keçirilməsinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərəcək.*

***Yalçın Rəfiyev***

***COP29-un baş danışıqçısı***



*Yalçın Rəfiyev COP29 Azərbaycan üzrə baş danışıqçıdır. Y. Rəfiyev 20 ilə yaxındır Xarici İşlər Nazirliyində çalışır və hazırda xarici işlər nazirinin müavinidir. O, Azərbaycanın BMT-nin Vyanadakı daimi nümayəndəliyində üçüncü və ikinci katib, Azərbaycanın BMT-nin Cenevrədəki daimi nümayəndəliyində birinci katib vəzifələrində çalışıb. Beş ilə yaxın Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinə rəhbərlik edib.*

*Y. Rəfiyev baş danışıqçı vəzifəsində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 198 Tərəfi ilə ədalətli və şəffaf proses çərçivəsində ümumi uğur vizyonuna əsaslanan danışıqlar üçün konsensus yaratmaq və potensial imkanları müəyyən etmək istiqamətindəişləyəcək.*



***Elnur Soltanov***

***COP29-un baş icraçı direktoru***

*Elnur Soltanov COP29-un baş icraçı direktorudur. Texas Texnologiya Universitetinin siyasi elmlər üzrə fəlsəfə doktorudur. 2018-ci ildə energetika nazirinin müavini təyin edilən E. Soltanov İctimai və Beynəlxalq Əlaqələr Məktəbində dekan, Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru vəzifələrində çalışıb.*

*Baş icraçı direktor vəzifəsində Elnur Soltanov COP29 Sədrliyinin fəaliyyətini və onun gündəliyinin hazırlanmasını koordinasiya edəcək. E. Soltanov iqlimlə bağlı fəaliyyətin inkişafı üzrə çoxtərəfli forumlarda Sədrliyi təmsil edəcək.*

***Nərmin Carçalova***

***COP29 Əməliyyat Şirkətinin***

***İdarə Heyətinin***

***sədri və Əməliyyatlar üzrə baş icraçı***




*Nərmin Carçalova COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçıdır. O, Heydər Əliyev Fondunda ətraf mühitin mühafizəsi və iqlim fəaliyyəti üzrə layihələrə rəhbərlik edib və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında müxtəlif vəzifələrdə çalışıb. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28-də Azərbaycan pavilyonunun layihə meneceri kimi fəaliyyət göstərib.*

*Əməliyyatlar üzrə baş icraçı kimi Nərmin Carçalova COP29 tədbirinin effektiv və dayanıqlı keçirilməsinə səy göstərərək qlobal iqlim dəyişmələrinə qarşı mübarizə üzrə növbəti addımların qərarlaşdırılması və razılıq əldə olunması üçün deleqatlara münbit mühitin yaradılmasını təmin edəcək.*




***Nigar Arpadarai***
***COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu***

*Nigar Arpadarai COP29-un BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionudur. N.Arpadarai Azərbaycan Milli Məclisinin deputatıdır. O, Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr, Ailə, qadın və uşaq problemləri komitələrinin üzvüdür.*

*BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu kimi Nigar Arpadarai iqlim məqsədlərinə çatmaq üçün prosesdə müxtəlif tərəflərin və qeyri-dövlət subyektlərinin iştirakının təmin edilməsi istiqamətində fəaliyyət göstərəcək, fəaliyyətlərində dayanıqlılıq məsələlərinin prioritetləşdirilməsi istiqamətində məlumatlılığın artırılması üçün özəl sektorla işləyəcək.*

***Leyla Həsənova***
***COP29-un İqlim üzrə gənclər çempionu***




*Leyla Həsənova COP29 Azərbaycanın İqlim üzrə gənclər çempionudur. L.Həsənova Qoşulmama Hərəkatının Gənclər Təşkilatının sədridir. Leyla Həsənova daha əvvəl Qoşulmama Hərəkatının Gənclər Təşkilatında Katibliyin rəhbəri və ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunda proqram koordinatoru vəzifələrində çalışıb.*

*İqlim üzrə gənclər çempionu kimi Leyla Həsənova gənclərin və gənclər təşkilatlarının iqlim diplomatiyasına və COP prosesinə cəlb olunmalarının təmin edilməsi istiqamətində fəaliyyət göstərəcək.*

*O, həmçinin uşaq və gənclərin dəstəklənməsini, gənclərin iqlim fəaliyyətində iştirakını təşviq etmək üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının rəsmi uşaq və gənclər dairəsi olan YOUNGO ilə işləyəcək.*